**“Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 4 nömrəli Sərəncamının 2.7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 7 iyun 2018-ci il
255

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2018-ci il 7 iyun tarixli 255 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların**

**SİYAHISI**

1. Təhsil müəssisələri:
1.1. Azərbaycan Turizm və Menecment Universiteti;
1.2. Bakı Turizm Peşə Məktəbi;
1.3. Mingəçevir Turizm Kolleci.

2. Dövlət qoruqları:
2.1. “Yanar dağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu;
2.2. “Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu;
2.3. “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu;
2.4. Azərbaycan Respublikasının “Xınalıq” Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu;
2.5. “Lahıc” Dövlət Tarix-Mədəniyyət Qoruğu;
2.6. “Yuxarı Baş” *Milli* Tarix-Memarlıq Qoruğu (Şəki şəhəri “Karvansaray” Mehmanxana Kompleksi daxil olmaqla); [1]
2.7. “Kiş” Tarix-Memarlıq Qoruğu;
*2.8. “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu.* [2]

3. Turizm İnformasiya mərkəzləri:
3.1. Bakı Turizm İnformasiya Mərkəzi (“Baku City Tour” turist avtobusları daxil olmaqla);
3.2. Şamaxı Turizm İnformasiya Mərkəzi;
3.3. Xaçmaz Turizm İnformasiya Mərkəzi;
3.4. Quba Turizm İnformasiya Mərkəzi;
3.5. Lənkəran Turizm İnformasiya Mərkəzi;
3.6. Gəncə Turizm İnformasiya Mərkəzi;
3.7. Şəki Turizm İnformasiya Mərkəzi;
3.8. Zaqatala Turizm İnformasiya Mərkəzi;
3.9. Qəbələ Turizm İnformasiya Mərkəzi;
3.10. İsmayıllı Turizm İnformasiya Mərkəzi;
3.11. Bərdə Turizm İnformasiya Mərkəzi.

4. Təsərrüfathesablı qurumlar:
4.1. “Azərbaycan Konqreslər Bürosu” Məhdud Məsuliyyətli Cəmiyyəti;
~~4.2. “Şahdağ” Qış-Yay Turizm Kompleksinin Müdiriyyəti;~~ [3]
4.3. “Şahdağ Turizm Mərkəzi” Qapalı Səhmdar Cəmiyyəti;
*4.4. “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxs.* [4]

5. Digər qurumlar:
5.1. Milli Kulinariya Mərkəzi.
*5.2. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları idarəetmə Mərkəzi.* [5]
*5.3. Lahıc Tarix-Diyarşünaslıq Muzeyi.*
*5.4. Şəki Tarix-Diyarşünaslıq Muzeyi.*
*5.5. Şəki Xalq Tətbiqi Sənəti Muzeyi.*
*5.6. Şəki Dövlət Rəsm Qalereyası.*

*5.7. Basqal qəsəbə Mədəniyyət Evi.*

*5.8. Xınalıq kənd Mədəniyyət Evi.*[6]

**Qeyd.** Bu Siyahıda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 sentyabr 2018-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 sentyabr 2018-ci il, 202 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1909)**
2. 15 fevral 2019-cu il tarixli **54** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 fevral 2019-cu il, 40 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 352)**
3. 11 aprel 2019-cu il tarixli **160** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 aprel 2019-cu il, 80 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 754)**
4. 14 avqust 2019-cu il tarixli **356** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 avqust 2019-cu il, 177 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1462 )**
5. 13 iyun 2020-ci il tarixli **203** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 iyun 2020-ci il, 114 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 793)**
6. 30 sentyabr 2020-ci il tarixli **363** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 oktyabr 2020-ci il, 202 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1235 )**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 13 iyun 2020-ci il tarixli **203** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 iyun 2020-ci il, 114 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 793 )** ilə "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 2.6-cı bəndində "**Dövlət**" sözü "**Milli**" sözü ilə əvəz edilmişdir.

[2] 30 sentyabr 2020-ci il tarixli **363** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 oktyabr 2020-ci il, 202 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1235 )** ilə "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 2.7-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.8-ci bənd əlavə edilmişdir.

[3] 10 sentyabr 2018-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 sentyabr 2018-ci il, 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1909)** ilə "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 4.2-ci bəndi ləğv edilmişdir.

[4] 15 fevral 2019-cu il tarixli **54** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 fevral 2019-cu il, 40 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 352)** ilə "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 4.3-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 4.4-cü bənd əlavə edilmişdir.

[5] 11 aprel 2019-cu il tarixli **160** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 aprel 2019-cu il, 80 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 754 )** ilə "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"na yeni məzmunda 5.2-ci bənd əlavə edilmişdir.

[6] 14 avqust 2019-cu il tarixli **356** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 avqust 2019-cu il, 177 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1462 )** ilə "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"na yeni məzmunda 5.3-5.8-ci bəndlər əlavə edilmişdir.